Əziz xalqım,
Dəyərli bacı və qardaşlarım,

Öncə 28 May Respublika günündə başda Məhəmməd Əmin Rəsulzadə başda olmaqla 104 il bundan əvvəl Azərbaycana istiqlal qazandıran, xalqın müstəqillik arzusunu gerçəkləşdirən, qanları, canları və ağılları ilə Şərqdə ilk demokratik dövlətçilik salnaməsi yaradan, vətənin bölünməz bütünlüyü üçün canlarını sevə sevə fəda edən cumhuriyyət qurucularını, Qarabağ müharibələrinin şəhidlərini, istiqlal və qurtuluş savaşının qəhrəmanlarını rəhmətlə anır, bu tarixi gündə Azərbaycan xalqına əbədi müstəqillik, həmrəylik, güc və birlik, ölkənin inkişafı və rifahı üçün demokratik dəyərlər və azadlıqlar arzu edirəm.
Qeyd etmək istərdim ki, 28 May Müstəqillik gününün 104-cü ildönümü tarixin mühüm dövrünə təsadüf edir. Bu dövr ayrıca Azərbaycan da daxil olmaqla bütövlükdə post-sovet məkanı, hətta deyərdim ki, sivil dünya üçün dönüş zamanıdır. Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən sonra yaranmış yeni situasiya Azərbaycan üçün də yeni imkanlar, çağırışlar deməkdir. Biz bunu qiymətləndiriməliyik.
Odur ki, hazırki stuasiyanın özəlliyini nəzərə alaraq, qəlbində Məhəmməd Əmin sevgisi daşıyan, böyük Rəsulzadənin dövlətçilik ideyaları ilə qidalanan və ondan bəhrələnən hər kəsi müstəqilliiyə sədaqətin nümayiş etdirilməsi naminə həyatını Azərbaycanın istiqlalı uğrunda mübarizəyə qurban verən öndərimizin Novxanındakı heykəlini, onun əzizlərinin məzarını Azərbaycan və türk bayraqlarının dalğaları altında ziyarət etməyə dəvət edirəm. İnanıram ki, siyasi, milli, dini mənsubiyyətindən asılı olmayaraq on minlərlə azadlıq sevərlər bugünün və tarixin bu anının əhəmiyyətini dəyərləndirib, Azərbaycanın gələcəyinin daha aydın və işıqlı olması naminə birlik və həmrəylik nümayiş etdirəcək və M.Ə. Rəsulzadənin layiqli qiymətini göstərmək üçün Novxanıda mayın 28-də səhər saat 11-dən başlayan bayram aksiyasına qoşulacaqsınız.
Cumhuriyyət bayramınız mübarək, əziz dostlar!
Sən bizimsən, bizimsən durduqca bədəndə can,
Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!

Qubad İbadoğlu, Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyasının sədri